*Səyyar qəbullar*

# Kənddə görüş

İyun ayının 18-də rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Zərgərli kənd inzibati ərazi nümayəndəliyində kənd sakinləri ilə görüş-qəbul keçirmişdir. Görüşdə kənd ağsaqqalları, ziyalılar, gənclər, rayonun bir sıra idarə və müəssisə, xidmət təşkilatlarının rəhbərləri iştirak etmişlər.

Tədbiri açan kənd inzibati ərazi nümayəndəsi Nazim Cənnətəliyev qonaqları kənd əhalisi adından salamladı. Ərazi nümayəndəsi kəndin sosial-iqtisadi göstəriciləri, əhalinin məşğulluğu və bir sıra problemlər barədə iştirakçılara məlumatlar verdi. Qeyd etdi ki, kənddə 91 hektar sahəyə payızlıq taxıl səpilmişdir. Sahələrdən bol məhsul gözlənilir.

Kənd əhalisi heyvandarlıq məhsulları istehsalı ilə də məşğul olur. Bu sahə də ildən-ilə inkişaf etməkdədir.

Ərazi nümayəndəsi, ümumiyyətlə, kənddə işsizlik probleminin olmadığını qeyd edərək bildirdi ki, gənclərimiz və ümumiyyətlə əmək qabiliyyətli əhali öz şəxsi təsərrüfatlarında və ya rayon mərkəzindəki tikintisi davam etməkdə olan obyektlərdə, habelə digər təşkilatlarda çalışırlar.

Kənddə problemlərin də olduğu qeyd olundu. Əhali tərəfindən kənddə yeni məktəb binasının tikilməsinə, təbii qaz xəttinin çəkilməsinə, işıq xətlərinin təminə ehtiyac olduğu billdirildi.





Rayon İcra hakimiyyətinin başçısı Səbuhi Abdullayev kənd sakinləri tərəfindən qaldırılan hər bir problemi, kəndin sosial-iqtisadi inkişafı üçün irəli sürülən arzu və təklifləri dinlədi və aidiyyatı üzrə idarə və təşkilat rəhbərlərinə tapşırıqlar verdi.

Sonda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev əhalinin həyat səviyyəsinin yüksəldilməsinin, yeni iş yerlərinin açılmasının, kəndlərimizin sosial-iqtisadi inkişafının möhtərəm Prezident İlham Əliyevin daim diqqət mərkəzində olduğunu billdirdi, görülən işlərin bundan sonra da davam etdiriləcəyini qeyd etdi.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**

# «Əbədiyyət dastanı»



Qəbələ rayon Heydər Əliyev Mərkəzində xalq şairi Zəlimxan Yaqubun ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr etdiyi «Əbədiyyət dastanı» adlı audio diskin təqdimat mərasimi keçirilmişdir.

Tədbiri giriş sözü ilə Qəbələ Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Nargilə Qafarova acdı. Sonra söz Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə elmi-metodiki mərkəzin direktor müavini, Azərbaycan Respublikası Fəxri mədəniyyət işçisi Polad Zeynalova verildi. Mədəni İnkişaf Mərkəzi İctimai Birliyinin rəhbəri, mədəniyyət üzrə elmi-metodiki mərkəzin əməkdaşı Gəray Əlibəyov çıxış edərək diskin yaranma tarixindən danışdı. Sonra disk nümayiş olundu.

Respublikanın əməkdar artisti, Mədəniyyət və İncəsənət Universitetinin dosenti Azad Şükürov şerlər səslǝndirdi.

**Foto və mətn Şöhrət Süleymanovundur.**

# Müasirləşən və gözəlləşən Qəbələ

Aybaay, ilbəil yeniləşən, müasirləşən Qəbələyə Azərbaycanın dilbər güşəsi də deyirlər. Bu dağlar yurdunun keçmişi də şanlı-şöhrətli olub. Qədim ticarət mərkəzi, Alban dövlətinin ilk paytaxtı kimi tarixlərdə dönə-dönə hallanıb. Keçmiş Sovet dönəmində də Qəbələ Azərbaycanın qabaqcıl kənd təsərrüfatı bölgəsi kimi tanınıb, onun qabaqcıl təcrübəsi geniş yayılırdı. Tütünçülük, taxılçılıq, heyvandarlıq, üzümçülük və meyvəçilik bu rayonun şöhrəti sayılıb.

Müstəqillik illərində də Qəbələ bütün sahələrdə öz missiyasını davam etdirir, yeni-yeni uğurlar qazanır. Xüsusilə Qəbələdə aparılan tikinti-quruculuq işləri ümumrayon hərəkatına çevrilib. Bu hərəkat hər kəsin ürəyincədir. Hazırda burada bütün imkanlar bacarıqla aydın məqsəd uğrunda mübarizəyə yönəldilib. Məqsəd isə rayon əhalisinin sosial problemlərini həll etməkdən, adamların həyat səviyyəsini yaxşılaşdırmaqdan, firavan dolanışığına nail olmaqdan ibarətdir. Dövlətin daxili siyasətinin mühüm tərkib hissəsi kimi rayon rəhbərliyi öz fəaliyyətində bu sahəyə ciddi fikir verir. Bütün yaşayış məntəqələri daimi elektrik enerjisi ilə təmin edilib, əksər qəsəbə və kəndlər qazlaşdırılıb, qalan yaşayış məntəqələri sürətlə qazlaşdırılır.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları Qəbələyə yeni həyat verib. Hər yanda tikinti-abadlıq işləri gedir. Qəbələdə istifadəyə verilmiş Beynəlxalq Hava Limanı son illərin uğurudur. İstər rayon mərkəziində, istərsə də qəsəbə və kəndlərdə yeni müəssisələr açılır, köhnələr bərpa olunmuş, abadlıq-quruculuq işləri getdikcə geniş miqyas alır. Yaxın vaxtlarda Qəbələ rayonuna xüsusi gözəllik bəxş edən obyektlər sırasında Mədəniyyət mərkəzi, Cümə Məscidi, şərab zavodu, tikintisinin bir hissəsi başa catdırılmış atıcılıq klubu, yeni heyvandarlıq-südçülük kompleksləri və digər tikinti obyektləri buna misaldır.

Hazırda rayon mərkəzində həyata keçirilən tədbirlər heç də bu sadalananlarla bitmir. Şəhərin ayrı-ayrı ünvanlarında müasir layihələr əsasında bir neçə inzibati bina inşa olunur. «Konqres Holl», «Karvansaray» otellər kompleksində «Cipsi» və şərab zavodlarında, atıcılıq klubunun ikinci hissəsində, Yengicə kəndində inşa olunan oteldə və digər obyektlərdə tikinti quraşdırma işləri davam etdirilir.

Bu gün fərəhlə qeyd etmək olar ki, dünənə qədər şəhər tipli qəsəbəni xatırlayan Qəbələ şəhəri son illər öz simasını xeyli dəyişib. Küçə və meydanlar genişləndirilib, şəhərdə görülən işlər, salınan yaşıllıqlar böyük zövqlə həyata keçirilmişdir. Milli ornamentlərlə işlənmiş qapılar bir sənət əsəri kimi küçələrə yaraşıq verir. Xüsusilə şəhəri iki hissəyə bölən mərkəzi İsmayıl bəy Qutqaşınlı küçəsində bir-birindən yaraşıqlı, hündür mərtəbəli yaşayış evləri, digər sosial obyektlər inşa olunub. Son iki ildə Heydər Əliyev, 28 May, Nizami, Səməd Vurğun küçələrində və Qəbələ—Bakı magistral yolunda yüksək səviyyədə yenidənqurma işləri aparılmış, yaşıl zolaqlar salınmış, bəzək ağacları əkilmiş, küsələr boyu yeni işıq sistemləri quraşdırılmışdır.

(Ardı 7-ci səhifədə).